

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 115 (23.026)

22 iyun 2018-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## A.M.Məmmədovun Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini vəzifəsindən azad edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Asəf Mehdi oğlu Məmmədov Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 21 iyun 2018-ci il*

## "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı ilə təltif haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında səmərəli əlaqələrin inkişafına görə Mənsur Abbasquli oğlu Ayrom "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı ilə təltif edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 21 iyun 2018-ci il*

## Naxçıvan şəhərində İSESKO-nun "Yaşıl şəhər strategiyası"nın həyata keçirilməsi ilə bağlı ekspertlərin görüşü olub

***"Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" tədbirləri çərçivəsində iyun ayının 21-də Naxçıvan Şəhər İcra Hakimiyyətində İSESKO-nun "Yaşıl şəhər strategiyası"nın həyata keçirilməsi ilə bağlı ekspertlərin görüşü keçirilib.***

Əvvəlcə tədbir iştirakçıları ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edərək gül dəstələri qoyub, ulu öndərin xatirəsinə ehtiramlarını bildirib, Heydər Əliyev Muzeyində dahi şəxsiyyətin həyatı, siyasi və dövlətçilik fəaliyyəti ilə bağlı eksponatlara baxıblar.

İcra Hakimiyyətinin foyesində muxtar respublikanın fauna və florasını, müalicəvi bitkilərini, qədim diyarın zəngin təbiətini özündə əks etdirən kitablardan, şəkillərdən, bukletlərdən ibarət sərgiyə baxışdan sonra birinci texniki sessiya başlanıb.

Görüşdə çıxış edən Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin "Yaşıl şəhər strategiyası" üzrə eksperti Araz Bağırlı ölkəmizdə, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda bu istiqamətdə həyata keçirilən tədbirlərdən danışıb, görüşün əhəmiyyətini vurğulayıb.

İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin "Yaşıl şəhərlər"i üçün İSESKO-nun Fəaliyyət Planı layihəsi"nin təqdimat mərasimində İSESKO-nun "Yaşıl şəhər strategiyası" üzrə eksperti Foued El Aynı



görüşün məqsədi və gözlənilən nəticələr barədə danışıb. Səmimi qarşılanma və yüksək qonaqpərvərlik üçün minnətdarlığını bildirib.

Görüşdə Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin şöbə müdiri Azər Məmmədov "Naxçıvanın ekoloji mühitinin qorunması" mövzusunda çıxış edib. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası ərazisində ən mühüm ekoloji amil kimi diyarımızın təbii iqlim və torpaq xüsusiyyətləri nəzərə alınaraq yaşıllıqların qorunması və artırılmasına xüsusi diqqət yetirilir. Vurğulanmalıdır ki, ərazisinin 25 faizdən çoxu meşə ilə örtülü olan ölkələrdə ekoloji mühit daim əlverişli, təbii fəlakətlər və eroziya prosesləri daha zəif olur. Və xüsusilə regionumuzdakı meşələrin I qrup, yəni yalnız qoruyucu funksiyalı olması bu əhəmiyyəti daha da artırır. Muxtar respublika ərazisində kəskin kontinental iqlim şəraitinin mövcud olması, günəşli saatların çoxluğu meşələrin qorunması ilə bərabər, yeni meşələrin, yaşıllıqların, meyvə bağlarının salınmasını da zəruri edir.

Bildirilib ki, bu baxımdan yaşıllıqların salınması, yeni ağacların əkilməsi müasir dövrdə strateji istiqamət kimi qəbul edilir. Naxçıvan şəhərində hələ keçmiş zamanlardan kütləvi yaşıllıq sahələrinin qorunduğu ərazilər mövcuddur. Məsələn, şəhərdəki ən böyük yaşıllıq massivlərindən biri el arasında "Böyük bağ" adlanan ərazidir. Tarixi mənbələrə görə, bu bağ 100 il bundan əvvəl salınıb. Hazırda burada hər iki əsrə şahidlik edən yüzlərlə meşə ağacı var. Şəhərin cənub-qərb istiqamətində yerləşən Əcəmi seyrəngahında da belə çoxillik ağaclara rast gəlmək mümkündür. Son illərdə hər iki ərazidə abadlaşdırma tədbirləri ilə yanaşı, yeni ağacların əkilməsinə də diqqət xeyli artırılıb. Bundan əlavə, şəhərin cənub hissəsində, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksini əhatə edən qala divarlarının aşağı səmtində yerləşən yaşıllıq sahəsi də buradakı çoxillik ağacları ilə diqqəti cəlb edir. Ümumiyyətlə, ötən dövrdə şəhərin hər yerində – park və küçələrində, idarə, təşkilat və müəssisələrin ərazilərində yeni ağaclar əkilib, şəhər ətrafında yeni bağlar salınıb, meşə massivləri yaradılıb.

Qeyd olunub ki, son 25 ildə muxtar respublika ərazisində 17 min hektardan çox sahədə toxum və ting əkini ilə yeni yaşıllıqlar, meyvə bağları, meşə massivləri salınıb, təbii bərpa hesabına yaşıllıq ehtiyatları 35 min hektardan çox artıb. Haliyədə muxtar respublikanın ümumi ərazisinin 14 faizə qədəri yaşıllıqlarla örtülüb.

Vurğulanıb ki, Naxçıvan şəhərinin əhalisi haliyədə 100 min nəfərə yaxın, ərazisi isə 19 min hektardır. Bu ərazidə, ümumilikdə, 850 hektara yaxın yaşıllıq zolaqları vardır və adambaşına düşən yaşıllığın həcmi 85 kvadratmetrdir. Bu da Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 5 yanvar tarixli Qərarına müvafiq olaraq Naxçıvan əhalisinə görə orta şəhərlərə aid edildiyindən, faktiki yaşıllığın sahəsi bu normadan (adambaşına 7 kvadratmetr) 12 dəfə çoxdur. Burada mövcud tarixi yaşıllığın qorunması, yaradılan infrastruktur, yeni yaşıllıqların salınması, İslam mədəniyyəti, təbiətə dövlət qayğısı, alternativ bərpaolunan enerji ehtiyatlarından səmərəli istifadə edilməsi kimi amillər yaşı minilliklərlə ölçülən, dünyanın ikinci başlanğıc yeri sayılan qədim Nuh yurdunun yaşıllıq potensialının zənginləşməsini və dünyada "Yaşıl şəhər" kimi ön sıralarda durmasını təmin edib.

Sonra Misirin "Yaşıl şəhər strategiyası" üzrə eksperti Mohsen Abouelnaga tərəfindən İSESKO-nun "Yaşıl şəhərlər və onların davamlı inkişaf məqsədlərinin əldə olunması ilə əlaqəsi üzrə Fəaliyyət Planı layihəsi" sənədinin təqdimatı olub. Ekspert tədbir iştirakçılarına bu planın həyata keçirilməsində əsas çağırışların müəyyən edilməsi barədə ətraflı məlumat verib.

İkinci sessiyada üzv ölkələrin – Azərbaycanın, Türkiyənin, Özbəkistanın, Tacikistanın təcrübələrinin təqdimatı olub, müzakirələr keçirilib, tövsiyələr səsləndirilib.

Qeyd edək ki, bu gün İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin "Yaşıl şəhərlər"i üçün İSESKO-nun Fəaliyyət Planı layihəsi"nin panel müzakirələri keçiriləcək.

✍ **Muxtar MƏMMƏDOV**

## 2018-ci ilin yanvar-may aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada 2018-ci ilin yanvar-may aylarında 959 milyon 712 min 800 manatlıq ümumi daxili məhsul istehsal olunub. Bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,6 faiz artaraq 2116,7 manata çatıb.

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Bu sahə üzrə 431 milyon 456 min manat dəyərində məhsul istehsal edilib ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,6 faiz çoxdur.

* * *

Vəsait qoyuluşları çərçivəsində 2018-ci ilin yanvar-may aylarında muxtar respublikada



bütün maliyyə mənbələrindən əsas kapitala 394 milyon 770 min 400 manat vəsait yönəldilib ki, bu da bir il öncəki göstəricidən 2,4 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 373 milyon 660 min manatı və ya 94,7 faizi tikinti-quraşdırma işlərinin payına düşüb.

* * *

Bəhs olunan dövrdə 52 milyon 123 min 800 manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilib. Bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,5 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 8969 tona, süd istehsalı isə 35 min 589,2 tona çatıb. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 5,1 faiz, süd istehsalı isə 1,4 faiz artıb.

* * *

2018-ci ilin yanvar-may aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 20 milyon 746 min manat olub ki, bu da 2017-ci ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 2,4 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 16 milyon 822 min manat təşkil edib və bir il öncəyə nisbətdə 1,8 faiz artıb.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılıb, 2018-ci ilin yanvar-may aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 22 milyon 891 min 300 manat məbləğində kreditlər verilib. Bu da bir il önceki göstəricidən 2,5 dəfə çoxdur. Verilmiş kreditlərin 2 milyon 306 min 100 manatı və yaxud 10,1 faizi qısamüddətli, 20 milyon 585 min 200 manatı və yaxud 89,9 faizi uzunmüddətli kreditlər olub.

* * *

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 382 növdə məhsul istehsal olunur ki, bunun da 126 növü ərzaq, 256 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilib.



1 iyun 2018-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 71 min 969-a çatıb. Bunun da 62 min 984-ü və ya 87,5 faizi aktiv hesablardır. 2018-ci ilin yanvar-may aylarında açılmış 7123 bank hesabının 7036-sı aktiv hesablar olub.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 iyun 2018-ci il tarixə 1266-ya çatdırılıb.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik



inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaradıb, 2018-ci ilin yanvar-may aylarında 144 milyon 70 min 200 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınıb. İxracın dəyəri 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə artaraq 127 milyon 140 min 700 ABŞ dolları təşkil edib, 110 milyon 211 min 200 ABŞ dolları dəyərində müsbət saldo yaranıb.

* * *

2018-ci ilin yanvar-aprel aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 420,5 manata çatıb ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,6 faiz çoxdur.

* * *

1 may 2018-ci il tarixə muxtar respublika əhalisinin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 3778 nəfər artaraq 453 min 763 nəfər olub.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

Naxçıvan: İslam Mədəniyyətinin Paytaxtı – 2018

# İslama münasibətin Naxçıvan modeli



***İyunun 20-də Naxçıvanın tarixinə daha bir möhtəşəm səhifə yazıldı. “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018”in açılış tədbiri qədim diyarın ictimai-siyasi və mədəni həyatında əlamətdar hadisəyə çevrildi.***

İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (İSESKO) Baş direktorunun, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) Baş katibinin, 10-dan artıq İslam ölkəsinin mədəniyyət nazirinin və nazir müavinlərinin, diplomatik nümayəndələrinin iştirak etdiyi bu mötəbər tədbir bütün dünyanın diqqətini Azərbaycanın qədim və müqəddəs şəhərinə – Naxçıvana yönəltdi. Və bir daha təsdiq olundu ki, Naxçıvan qədim sivilizasiyasının beşiklərindən biri olmaqla yanaşı, həm də İslamın əsas mərkəzlərindəndir.

İlk növbədə, onu qeyd edim ki, hər bir dinə münasibət onun dəyərlərinə hörmətdən başlayır. Əgər dini dəyərlər xalqın mənəvi dəyərinə çevrilirsə, onda bu, mədəni inkişafdır. Əks-təqdirdə isə bu, cəhalət və xurafata yol açır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Mənəvi dəyərlər o halda fayda verə bilər ki, insanlarda bu dəyərlərə şüurlu münasibət formalaşsın”.***

Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı seçilməsi də bu diyarda tarixən İslam dəyərlərinin yaşadılmasının, müasir dövrdə isə bu dəyərlərin elmi şəkildə öyrənilməsinin və tətbiqinin məntiqi yekunudur.

### Tarixə baxış

Naxçıvanda əhali İslam dinini könüllü olaraq, yəni müqavilə yolu ilə qəbul edib. Çünki Naxçıvanda təktanrıçılıq İslamdan əvvəl də var idi. Bu torpağın, demək olar ki, hər qarışında müqəddəs yerlərin – təktanrıçılıq abidələrinin və Nuhla bağlı toponimlərin mövcud olması tarixən əcdadlarımızın səmavi dinlərə, dini etiqadlara hörmətlə yanaşmasından xəbər verir. Naxçıvan həm də Dünya tufanından sonra bütün dinlərin və xalqların həyatının başlandığı böyük sivilizasiya mərkəzidir. Əshabi-Kəhf, Gəmiqaya və Nuh Peyğəmbərin türbəsi isə Naxçıvanın mənəvi emblemləridir. Bütün bunlar onu deməyə əsas verir ki, Naxçıvanda Tanrıya olan inam, bağlılıq İslamdan əvvəl olmuş, İslam dininin qəbulundan sonra onun dəyərlərinə uyğun olaraq daha da zənginləşmişdir. Akademik İsa Həbibbəylinin də qeyd etdiyi kimi: *“Naxçıvanda İslam dininə cəhalət və fanatizmdən uzaq yeni bir baxış – elmi və mədəni yanaşma formalaşmışdır”.*





İslamın dəyərləri o yerdə inkişaf edib ki, orada dövlətçilik ənənəsi, mədəni inkişaf səviyyəsi olub. Naxçıvanın dövlətçilik tarixi, yüksək mədəni inkişaf səviyyəsi İslam dəyərlərinə münasibətdə də özünü göstərmişdir. Zaman ötdükcə İslam dəyərləri bu torpaqda min illərlə tarixi olan türk mədəniyyəti ilə vəhdətdə inkişaf edərək türk-islam mədəniyyəti səviyyəsinə yüksəlmişdir.

Naxçıvandan tarixən görkəmli İslam alimlərinin çıxması da məhz İslama elmi yanaşmanın nəticəsi kimi dəyərləndirilməlidir. X-XIII əsrlərdə yaşamış hədis alimi Əhməd Naxçıvani, İslam hüququ alimi Məhəmməd Naxçıvani, təbabət alimi Fəxrəddin Naxçıvani, təsəvvüf şeyxlərindən Səlahəddin Naxçıvani və digərləri dövrünün mötəbər söz sahibləri olan İslam mütəfəkkirləri kimi həm də dünyəvi elmlərə yaxından bələd olmuş, öz əsərlərində İslam dəyərlərini təbliğ etmişlər. XV əsrdə yaşayan Baba Nemətullah Naxçıvani isə ilk dəfə Azərbaycan dilində “Qurani-Kərim”in təfsirlərini hazırlayıb nəşr etmişdi. XII-XVIII əsrlərdə Naxçıvanda türk-islam mədəniyyəti özünün intibah mərhələsinə yüksəlmiş, dəyərli memarlıq abidələri yaradılmış, türbələr, məscidlər, xanəgahlar, mədrəsələr, buzxanalar, hamamlar və digər möhtəşəm abidələr tikilmişdir. Naxçıvan memarlığı türkçülük, islamçılıq və dünyəviliklə vəhdətdə inkişaf edərək xalqımızın zəngin mədəni irsinə çevrilmişdir. Memar Əcəmi Naxçıvaninin 1186-cı ildə tikdiyi Möminə xatın türbəsi İslam dünyasında ana, qadın adına verilən ilk və ən yüksək qiymətdir.

Bütün bunlar zaman ötdükcə Naxçıvanın İslam aləminin dövlətçilik, mədəniyyət və fəlsəfi düşüncə mərkəzi kimi tanınmasına səbəb olmuşdur. Artıq Naxçıvan orta əsrlərdən başlayaraq yalnız təktanrıçılıq deyil, həm də İslamın müqəddəs məkanlarından biri kimi dünya alimlərinin də diqqətini cəlb edirdi.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Naxçıvanda yaşayıb-yaradan görkəmli mütəfəkkirlər də öz əsərlərində din və cəmiyyət mövzusunu daha çox qabartmış, İslam dəyərlərinin olduğu kimi yaşadılması ideyasını irəli sürmüşlər. Naxçıvanda elmi, mədəni və təhsil mühitinin formalaşmasında mühüm xidmətləri olan Məhəmməd Tağı Sidqi “Qız məktəbi” açmaqla əsrlərlə cəhalət pərdəsi altında qəlibləşən xurafatçı mollaların “qadınlar təhsil almamalıdır” buxovunu qırmış, İslamda qadınların təhsil almaq hüququnu ilk dəfə əməli şəkildə reallaşdırmışdır.

Yazıçı-dramaturq, publisist Cəlil Məmmədquluzadənin xurafatçı mollalara, “Şeyx Nəsrullah”lara qarşı mübarizəsi, dinin olduğu kimi qəbul edilməsi yolundakı fəaliyyəti də, əslində, saf və təmiz İslam uğrunda aparılan mübarizə kimi dəyərləndirilməlidir.

Romantik şairimiz Hüseyn Cavid “Peyğəmbər” pyesində İslamın din kimi yaranmasını və yayılmasını ilk dəfə bədii formada təsvir etmiş, hələ o dövrdə İslama qarşı səslənən əsassız ittihamlara tutarlı faktlarla cavab vermiş, İslama “qara çarşab kimi baxanları” kəskin tənqid etmişdir.

Düşünürəm ki, bütün bunlar İslama münasibətin Naxçıvan gerçəklikləri kimi özlüyündə mühüm bir elmi araşdırmanın, tədqiqat işinin mövzusudur. Bu işi tarixçilərin, dinşünasların və tədqiqatçıların öhdəsinə buraxırıq.

### Qısa xatırlatma

Yaxşı xatırlayırıq ki, müstəqilliyin ilk illərində yalançı məzhəb sahiblərinin məscidlərimizə, oradan evlərimizə, oradan isə sabahımız olan gənclərin şüuruna yol tapması cəmiyyəti dini dəyərlərimizə zidd olan boşluğa – mənəvi uçuruma sürükləyirdi. “Cadu”, “dua” yazan işbaz mollaların, “din xadimləri”nin peyda olması insanları İslamın mahiyyətindən çox uzağa – dini ayrı-seçkiliyə, cəhalət və xurafata doğru aparırdı. Müqəddəs ziyarətgahlarımızın dini dəyərlərimizdən uzaq düşməsini, həftəsonu istirahət, “piknik” yerinə çevrilməsini də, yəqin ki, heç kəs unutmayıb.

Əgər Naxçıvanda bütün bunların qarşısı vaxtında alınmasaydı, dinimiz, dəyərlərimiz bizə olduğu kimi öyrədilməsəydi, yəqin ki, bu gün nə mənəvi dəyərlərimizdən, nə də mədəni inkişafımızdan söhbət açmış olardıq.

### Müasir dövr: mənəvi dəyərlərə qayıdış

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanda dövlət-din münasibətlərinin əsasını qoymuş, İslam dəyərlərinə daim hörmətlə yanaşmışdır. Dahi rəhbər milli mentalitetin dörd əsas ünsür – dil, din, adət-ənənə və bunların vəhdətindən yaranan həmrəylik hesabına formalaşması ideyasını irəli sürmüş və onu gerçəkləşdirmiş, bunlar olmadan ölkəmizin siyasi, iqtisadi, sosial və mədəni inkişafının da mümkün olmayacağı qənaətini əsaslandırmışdır. Ölkəmizdə bu sahəni tənzimləyən qanunlar və digər normativ-hüquqi aktların qəbul olunması da hər bir şəxsin inancına hörmətlə yanaşılmasına, insanların dini etiqad azadlığının təmin olunmasına imkan verir.

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dini dəyərlərin qorunması, inkişaf etdirilərək gələcək nəsillərə çatdırılması istiqamətində həyata keçirdiyi tədbirlər dünyada sabitliyin, inkişafın və yüksək rifahın rəmzi olan Azərbaycanı həm də tolerant ölkəyə çevirib. Azərbaycanın Naxçıvan Muxtar Respublikasında da iqtisadi və mədəni inkişafla yanaşı, dini dəyərlərin qorunmasına da xüsusi diqqət yetirilir.

Naxçıvanın müasir inkişafında milli və mənəvi dəyərlərimizə qayıdış xüsusi yer tutur. Son illər muxtar respublikada 139 məscid tikilmiş və yenidən qurulmuş, dini-tarixi abidələr və ziyarətgahlar dövlət hesabına bərpa edilərək dindarların və zəvvarların ixtiyarına verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun müvafiq sərəncamına əsasən bütün tarixi abidələr, o cümlədən də türk-islam mədəniyyəti abidələri qeydiyyata alınaraq pasportlaşdırılmış, 70-dən artıq tarixi abidə bərpa olunmuşdur.

İslama çağırış, onun dəyərlərinə hörmət İslamı öyrənməklə, mütaliə etməklə, maariflənməklə mümkündür. Naxçıvanda din elmi şəkildə öyrənilir və təbliğ edilir. “Naxçıvan” Universitetində dinşünaslıq ixtisası üzrə təhsil verilir. Dinəyönümlü insanlar üçün təkmilləşdirmə kursları keçirilir. Naxçıvan şəhərində yeni tikilən məscid kompleksində oğlanlar və qızlar üçün nəzərdə tutulan mədrəsələr də bu sahədə görülən işlərin davamıdır. Dini dəyərlərin olduğu kimi təbliğinə xidmət edən, İslam mədəniyyətinə işıq tutan və onun mahiyyətini açan kitabların nəşr olunması da bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Son illər ictimaiyyətə təqdim olunan “Dünya və insan: başlanğıcın sonu, sonun başlanğıcı”, “Naxçıvan: türk-islam mədəniyyəti abidələri”, “İslamda müdrik kəlamlar”, “Naxçıvan türbələri”, “Naxçıvan hamamları”, “Naxçıvan buzxanaları”, “Qədim və müasir Naxçıvan” kitabları xüsusilə qeyd olunmalıdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Azərbaycan müstəqillik qazandıqdan sonra Naxçıvan Muxtar Respublikasında İslam dəyərlərinə yeni yanaşmanın – elmi baxışın əsası qoyulmuş, türk-islam mədəniyyəti abidələri tədqiq olunmuş, Naxçıvan İslam mədəniyyətinin əsas inkişaf mərkəzi kimi bir daha öz təsdiqini tapmışdır”.***

Etiraf etmək lazımdır ki, bu gün dünyada dinin əsl mahiyyətindən uzaqlaşmağın, dinin birləşdirici funksiyasının tamamilə unudulduğunun şahidi oluruq. Etnik-dini zəmində baş verən münaqişələr, dini ekstremizm və islamofobiya çox təəssüf ki, yaşadığımız dövrün gerçəklikləridir. İslamın terrorla uzlaşdırılmasının əsas səbəbi də dinə elmi yanaşmanın olmamasının, Qurandan uzaq düşmənin nəticəsidir. Lakin bu gün İslamı bölən məzhəb anlayışı Naxçıvana yaddır. Ötən ilin mart ayında İsveçrənin paytaxtı Bern şəhərində keçirilən “Multikulturalizm və dinlərarası dialoq” konfransında müasir dövrdə dinlər və məzhəblərarası dialoqun bərpasının çətin proses olduğu qeyd olunmuş, Naxçıvanda eyni dindən olan məzhəb sahiblərinin məscidlərdə birgə ibadət etməsi nümunə kimi göstərilmiş və bu təcrübənin öyrənilməsi zərurəti vurğulanmışdır.

İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru Əbdüləziz Osman əl-Tuveycrinin də Naxçıvan haqqındakı qənaəti maraqlıdır: *“Mən ilk dəfədir, Azərbaycanın Naxçıvan Muxtar Respublikasına gəlirəm. Naxçıvanı kəşf etdikcə belə bir qənaətə gəlirəm ki, bura cənnətdir. İslam tarixinin bir parçası olan Naxçıvan İslamın olduğu kimi təbliğinə öz töhfəsini verir”.*

Bir sözlə, muxtar respublikada dini-mənəvi dəyərlərin yaşadılması İslama münasibətin Naxçıvan modelinin aşağıdakı əsas cəhətlərini üzə çıxarıb:

- Naxçıvanda milli-dini ənənələr və dəyərlər qorunub yaşadılır, İslam olduğu kimi təbliğ edilir;
- Naxçıvanda dinə fanatizmdən uzaq elmi yanaşma var, dini təhsil verilir, İslamın əsasları öyrədilir. Dini maarifçilik ümumi maarifçiliyin tərkib hissəsi kimi götürülür;
- Naxçıvanda məscidlər təkcə ibadət yerləri deyil, həm də mənəvi dəyərlərimizin yaşadıldığı məkanlardır;
- Naxçıvanda ziyarətgahlardan və müqəddəs yerlərdən düzgün istifadə mədəniyyəti formalaşıb. Ziyarətgahlar həm də maddi-mənəvi sərvətimiz, tariximizin bir parçası kimi qorunub saxlanılır;
- Naxçıvanda dini bayramlar, ayinlər və mərasimlər mənəvi dəyərlərimizə uyğun şəkildə keçirilir. Dini ayinlər zamanı əzadarlıq – baş yarmaq, zəncir vurmaq kimi İslama zidd hərəkətlərə yol verilmir. Bunun əksinə olaraq daha humanist tədbirlər – könüllü qanvermə aksiyaları keçirilir. Yas mərasimləri İslam qaydalarına uyğun keçirilir, israfçılığa yol verilmir, din xadimləri cəhaləti, xurafatı yox, dinimizin ali dəyərlərini təbliğ edirlər;
- Naxçıvanda məzhəb və dini ayrı-seçkilik yoxdur. Müxtəlif məzhəblərə məxsus insanlar məscidlərdə dini əsaslara uyğun birgə ibadət edir, vəhdət namazları qılınır. Naxçıvanın özünəməxsus ibadət mədəniyyəti var;
- Naxçıvandakı sabitlik, sosial rifah və müasir infrastruktur həm də bu qədim diyarda İslam dəyərlərinin və mədəniyyətinin inkişafı üçün geniş imkanlar açır. Çünki dini-mənəvi dəyərlərin qorunması ümumi inkişafla birbaşa əlaqəlidir, onun davamıdır;
- Naxçıvanda elmə və təhsilə verilən qiymət, vətənpərvərlik, torpağa və yurda bağlılıq da əslində, dinimizin əsasında dayanan və onun mahiyyətini ifadə edən dəyərlərə hörmətdən xəbər verir;
- Bəşəriyyətin beşiyi olan Naxçıvan bu gün həm də İslam sivilizasiyasının, İslam mədəniyyətinin mərkəzi və əsas dayağıdır.

### Son söz

*Dinsiz elm kor, elmsiz din də topaldır. Çünki din inanc olmaqla yanaşı, mənəvi bütövlükdür, həmrəylikdir, ona şüurlu münasibət isə mənəvi dəyərdir. Hesab etmək olar ki, İslama münasibətin Naxçıvan modelinin əsas fərqləndirici cəhəti də dinə şüurlu münasibətin və elmi yanaşmanın olmasıdır. Bu isə dünyaya təqdim etdiyimiz ən ali MƏNƏVİ DƏYƏRİMİZDİR.*

**Ülvi HÜSEYNLİ**
**jurnalist**

# Naxçıvan öz potensialı ilə İslam dünyası üçün böyük xəzinədir

## *“Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018”in açılış tədbirinin iştirakçıları bu qənaətdədirlər*

***Xəbər verdiyimiz kimi, “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018”in açılış tədbirində iştirak etmək üçün muxtar respublikaya bir çox xarici ölkələrin nümayəndələri gəliblər. İyunun 20-də qonaqlar muxtar respublikanın bir sıra dini-tarixi yerləri, mədəniyyət və səhiyyə müəssisələri ilə də tanış olublar. Naxçıvandan zəngin təəssüratlarla ayrılan tədbir iştirakçıları öz fikirlərini “Şərq qapısı” qəzetinin oxucuları ilə bölüşüblər.***

***Əbdüləziz Osman əl-Tuveycri – İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru:*** – Azərbaycan böyük ölkə, azərbaycanlılar böyük xalqdır. Naxçıvan isə müasir Azərbaycanın qurucusu Heydər Əliyevin ana vətəni, həm də çoxsaylı maddi-mədəniyyət nümunələrinin qorunub saxlandığı məkandır. Bu baxımdan 2009-cu ildə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin konfransında Naxçıvanın 2018-ci ildə İslam Mədəniyyətinin Paytaxtı seçilməsi bizim üçün çox sevindirici oldu. Biz bundan şərəf duyur və əminik ki, bu il və gələcəkdə də Naxçıvan zəngin tarixi mirasının dünyaya tanıdılmasında çox işlər görəcəkdir. Çünki Naxçıvanın sahib olduğu zənginlikləri hələ çoxlarına tanıtmağa ehtiyac vardır.



Bu gün biz bu torpaqda yaşamış böyük elm və mədəniyyət xadimləri, memar və filosoflar haqqında çox şeylər öyrənirik. Bu isə İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı qarşısında bu zənginlikləri bütün üzv dövlətlər arasında tanıtmaq məsuliyyəti də yaradır. Bu isə şübhəsiz, simpozium, konfrans, görüşlər və nəşrlər hesabına mümkündür. Mən, şəxsən çox məmnunluqla deyərdim ki, İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı ilə Azərbaycan Respublikası arasında çox güclü əlaqələr vardır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın dəstəyi hesabına bu əlaqələr daha da dərinləşir, genişlənir, daha çox işlər görülür, layihələr həyata keçirilir.

İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı həmişə bütün məsələlərdə, xüsusən Dağlıq Qarabağ məsələsində Azərbaycanın yanında olub. Ölkənizin haqqının qorunması və BMT-nin məlum qətnamələrinə məhəl qoymayan Ermənistanın işğal etdiyi ərazilərdən çıxması üçün səsimizi duyurmuşuq və bunu indi də deyirik. Mən inanıram ki, bir gün gələcək bütün dünya ölkələri bu işğala qarşı birləşəcək və buna son qoyacaq.

Biz buradan bütün dünyaya bir mesaj göndərərək deyirik ki, Azərbaycan Respublikası, onun ayrılmaz bir parçası olan Naxçıvan sülhün bərqərar olduğu, elm və sivilizasiya məkanıdır. Düşmənlərin bütün əsassız iddialarının əksinə olaraq bura sivil şəkildə inkişaf edən, zəngin tarixə malik qədim diyardır. Biz Azərbaycan Respublikasında və Naxçıvan Muxtar Respublikasında olan dostlarımızla gələcəkdə bu reallıqların dünyaya çatdırılması üçün birgə işləyəcək və keçirəcəyimiz tədbirlərlə buna nail olmağa çalışacağıq. Bunlar arasında Naxçıvan abidələrinin UNESCO-nun miras siyahısına və İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı tərəfindən dəstəklənən İslam dünyası abidələri siyahısına salınmasına kömək etmək vardır. Mən çox şadam ki, bu səfərim mənə buradakı zənginlikləri öyrənmək baxımından bir fürsət yaratdı, çox yaddaqalan oldu.

***Dusen Kasseinov – Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının Baş katibi:*** – Mən ilk dəfə 2009-cu ildə Naxçıvanda olmuşam və türkdilli ölkələrin dövlət başçılarının burada keçirilən sammitində iştirak etmişəm. O zaman Naxçıvanda türkdilli ölkələrlə bağlı çox mühüm qərarlar qəbul edilmişdi. Bu tədbir muxtar respublikanın Türk dünyasında necə böyük bir mövqeyə malik olduğunu təsdiqləyir. Eyni zamanda Naxçıvanın 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsi bu önəmin göstəricisidir.



Vurğulamaq istəyirəm ki, Naxçıvan çox qədim tarixə və mədəniyyətə malikdir. Bu qədim Azərbaycan diyarında həm türk, həm də İslam mədəniyyətinin zənginliklərini özündə birləşdirən böyük potensial var. Mən diqqət etdim, ilk dəfə burada olduğum dövrdən keçən müddətdə Naxçıvanda böyük dəyişikliklər baş verib, mühüm infrastruktur layihələri həyata keçirilib. Eyni zamanda tarixi abidələrə yetərincə diqqət ayrılıb. Şəhərdə tarixilik elementləri ən yüksək səviyyədə qorunub saxlanılıb. Buna görə də bura gələndə, həqiqətən, əsl Şərq mədəniyyətinin incəliklərini özündə daşıyan bir şəhərə gəldiyini hiss edirsən. Möminə xatın abidəsi, Naxçıvanqala, Nuh Peyğəmbərin türbəsi və digər tikililər şəhərin əsl arxitektura simasını əks etdirir. Digər tərəfdən, Azərbaycanda Bakıdan sonra Naxçıvanın Mədəniyyət Paytaxtı seçilməsi bu qədim diyarın böyük potensialından xəbər verir. İnanıram ki, Naxçıvan bu adı böyük şərəflə daşıyacaq. Belə möhtəşəm tədbirə dəvətə və yüksək təşkilatçılığa görə muxtar respublika rəhbərinə öz minnətdarlığımı bildirirəm.

***Əbülfəs Qarayev – Azərbaycan Respublikasının mədəniyyət naziri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsi sədrinin müavini:*** – Naxçıvan tarixən Yaxın və Orta Şərqin əzəmətli şəhərlərindən biri olub. Bu qədim şəhər İslam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub yaşadılmasında özünəməxsus rol oynayıb.



Bu gün sürətlə inkişaf edən, qədimliyi, müasirliyi ilə diqqətləri üzərinə cəlb edən Naxçıvanda islami dəyərlərin qorunmasına, İslam mədəniyyətinin zənginləşməsinə böyük töhfələr verir. Məhz bu amillər Bakının İslam Mədəniyyətinin Paytaxtı kimi qeyd edildiyi 2009-cu ildə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransında Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunmasına dair qərar qəbul edilməsini şərtləndirib. Həmin qərar ölkəmizin bu qədim diyarındakı zəngin mədəni-mənəvi irsə yüksək qiymətin təzahürüdür.

Qədim Naxçıvan torpağında 1000-dən çox tarixi abidənin mövcudluğu, onlardan 60-a yaxın abidənin dünya əhəmiyyətli olması və həmin abidələr içərisində İslam mədəniyyəti nümunələrinin önəmli yer tutması bu diyarın dünya üçün, o cümlədən İslam aləmi üçün böyük önəm daşıdığını bir daha təsdiq edir. “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksi, Gəmiqaya rəsmləri, Naxçıvanqala, Nuh türbəsi, Qarabağlar, Yusif Küseyiroğlu, Möminə xatın türbələri, Əlincəqala və digər abidələrin xüsusi bir özəlliyi ondadır ki, bu tarixi irs nümunələri həm maddi-mənəvi baxımdan, həm də dini inanc baxımından müqəddəs dəyərlərlə bağlıdır. Ən əsası isə bu gün həmin abidələrin bərpasına, onun qorunub saxlanılmasına xüsusi diqqət yetirilir. Buna görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığımı bildirmək istəyirəm. Çünki muxtar respublikada görülən kompleks quruculuq işləri, həyata keçirilən tədbirlər, İslam mədəniyyəti nümunələrinin bərpasına göstərilən diqqət nəticəsində Naxçıvan bura gələn qonaqların gözündə İslam dünyasının mədəniyyət mərkəzi kimi bir daha canlandı.

Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı olması ilə əlaqədar keçirilən tədbirlər bundan sonra da davam edəcək. Həmin tədbirlər Naxçıvanla yanaşı, paytaxt Bakı şəhərində də təşkil ediləcək, eyni zamanda bəzi İslam ölkələrində tədbirlər olacaqdır. Sözsüz ki, bütün bunlar Naxçıvanın tanıdılmasına, İslam Mədəniyyəti Paytaxtı imicinin güclənməsinə öz təsirini göstərəcəkdir.

***Azzedine Mihoubi – Əlcəzairin mədəniyyət naziri:*** – Mən “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018”in açılış tədbirində iştirak etməkdən çox məmnunam. Bunun üçün mənə dəvət göndərənlərə ayrıca minnətdaram. Tədbir proqramı mükəmməl təşkil olunub və bundan çox gözəl təəssüratlar aldıq.



Naxçıvanın qədim tarixi vardır. Naxçıvan şəhərinin 5 minillik tarixinin olması və insanların bu tarixi mirası qoruması məndə böyük təəssürat yaratdı. Səfər çərçivəsində gəzib-gördüyümüz bütün yerləri, xüsusən bərpa olunmuş abidələri böyük maraqla izlədik. Görünür ki, burada tarixi və dini-mədəni mirasın qorunmasına, xüsusilə diqqətlə yanaşılır.

Müqəddəs Əshabi-Kəhfi ziyarət etmək mənim ən böyük arzum olub. Naxçıvana səfərim bu arzuya qovuşmağım üçün böyük fürsət oldu. Digər tərəfdən, burada bütün insanlar üçün belə ziyarətgahların əlçatan olması, bura gedən yolların, həmçinin ziyarətgahların abadlaşdırılması da məni sevindirdi. Ona görə ki, burada dövlət İslam adət və ənənələrinin qorunması üçün əhəmiyyətli işlər görür.

***Abbas Mustafa Ahmet Abdulla – Sudan Respublikasının Azərbaycan Respublikasındakı səfiri:*** – Mənim üçün belə bir tədbirdə iştirak etmək böyük bir şərəfdir. Çünki bu, mühüm əhəmiyyətə malik bir hadisədir. Naxçıvanı, onun sahib olduğu mədəniyyəti yaxından tanımaq fürsəti əldə etdiyim üçün çox şadam.



Biz Azərbaycana hərtərəfli inkişaf edən İslam ölkəsi kimi baxırıq. Belə ki, Azərbaycan İslam mədəniyyətinə tarixboyu çox böyük töhfələr verib. Sizin ölkəniz mədəniyyətlərarası dialoqda mühüm nailiyyətlər qazanıb. Naxçıvan da, öz növbəsində, tarix, mədəniyyət və turizm baxımından İslam dünyasında əhəmiyyətli məkandır. Hesab edirəm ki, bu il Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı seçilməsi Azərbaycandakı tolerantlıq və dünyəvi dəyərlərə olan bağlılıqla sıx əlaqədardır. İndi bütün dünyanın islami dəyərlərə çox ehtiyacı vardır.

**✍ Səbuhi HƏSƏNOV**
**✍ Əli CABBAROV**
**Tural AĞAYEV**

# Muxtar respublikada 6508 şagird buraxılış imtahanlarında iştirak edib

***Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı prioritet məsələdir. Yeni təhsil ocaqlarının tikilib istifadəyə verilməsi, onların maddi-texniki bazasının gücləndirilməsi uğurlu nəticələrin qazanılmasına imkan verir.***

İyunun 21-də Naxçıvan Muxtar Respublikasında ümumtəhsil məktəblərinin IX və XI sinif şagirdləri üçün mərkəzləşdirilmiş qaydada buraxılış imtahanları keçirilib. Buraxılış imtahanları Naxçıvan şəhəri üzrə 7 və 14 nömrəli, Şərur rayonu üzrə 1 və 2 nömrəli, Babək rayonu üzrə Şıxmahmud və Babək qəsəbə 1 nömrəli, Ordubad rayonu üzrə internat və Sabirkənd, Culfa rayonu üzrə şəhər 3 nömrəli, Şahbuz rayonu üzrə şəhər 1 nömrəli, Kəngərli rayonu üzrə Qıvraq qəsəbə, Sədərək rayonu üzrə Heydərabad qəsəbə tam orta məktəbləri olmaqla, ümumilikdə, 12 binada təşkil edilib.

IX siniflərin buraxılış imtahanlarında Naxçıvan şəhəri üzrə 679, Şərur rayonu üzrə 654, Babək rayonu üzrə 603, Ordubad rayonu üzrə 419, Culfa rayonu üzrə 330, Şahbuz rayonu üzrə 170, Kəngərli rayonu üzrə 220, Sədərək rayonu üzrə 95, Heydər Əliyev adına tam orta məktəb üzrə 74, Naxçıvan Qızlar Liseyi üzrə 58, Naxçıvan Qarnizonu tam orta məktəbi üzrə 32, Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey üzrə 27, Heydər Əliyev adına Hərbi Lisey üzrə 133 olmaqla, ümumilikdə, 3494 şagird, XI siniflərin buraxılış imtahanlarında isə Naxçıvan şəhəri üzrə 573, Şərur rayonu üzrə 579, Babək rayonu üzrə 538, Ordubad rayonu üzrə 238, Culfa rayonu üzrə 345, Şahbuz rayonu üzrə 128, Kəngərli rayonu üzrə 163, Sədərək rayonu üzrə 74, Heydər Əliyev adına tam orta məktəb üzrə 64, Naxçıvan Qızlar Liseyi üzrə 42, Naxçıvan Qarnizonu tam orta məktəbi üzrə 33, Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey üzrə 23, Heydər Əliyev adına Hərbi Lisey üzrə 214 olmaqla, ümumilikdə, 3014 şagird iştirak edib.



2016-2017-ci tədris ilindən etibarən ümumi orta təhsil bazasından buraxılış imtahanları ikimərhələli şəkildə həyata keçirilir. Belə ki, birinci mərhələdə şagirdlərə Azərbaycan dili fənni üzrə oxuyub-anlama və yazı bacarıqlarını yoxlamaq məqsədilə 10 açıqtipli, yəni cavab variantları verilməyən, doğru cavabın müəyyənləşdirilib yazı ilə ifadə olunması tələb edilən test tapşırığı, 10 qapalıtipli, yəni verilən cavab variantlarından 1 doğru cavabın müəyyənləşdirilib qeyd edilməsi tələb olunan test tapşırığı, riyaziyyat fənnindən riyazi bacarıqları yoxlamaq məqsədilə 10 açıqtipli, ümumilikdə, hər iki fənn üzrə 30 test tapşırığı təqdim edilir. İkinci mərhələdə digər məzmun standartları üzrə bilik və bacarıqları yoxlamaq məqsədilə hər bir fənn üzrə 30, ümumilikdə 60 qapalıtipli test tapşırığı təqdim edilir. Birinci mərhələdə şagirdlər, həmçinin təqdim edilmiş mövzulardan birini seçməklə, könüllülük prinsipi əsasında inşa (esse) yazırlar. Ümumi orta təhsil haqqında fərqlənmə attestatı almaq istəyən şagirdlər üçün inşa (esse) yazmaq məcburidir. Buraxılış imtahanının birinci mərhələsində imtahanın müddəti 2 saat 30 dəqiqədir. Test tapşırıqlarının yerinə yetirilməsinə 2 saat, inşanın (essenin) yazılmasına 30 dəqiqə vaxt ayrılır. İkinci mərhələdə digər məzmun standartları üzrə bilik və bacarıqları yoxlamaq məqsədilə hər bir fənn üzrə 30, ümumilikdə, 60 qapalıtipli test tapşırığı təqdim edilir və imtahanın gedişinə 1 saat 30 dəqiqə vaxt ayrılır.

Qeyd edək ki, şagird buraxılış imtahanının hər iki mərhələsinin nəticəsinə görə hər bir fənn üzrə maksimum 100 bal toplaya bilər. Birmərhələli şəkildə təşkil edilən tam orta təhsil bazası üzrə buraxılış imtahanı Azərbaycan dili, riyaziyyat və xarici dil fənləri üzrə hər birindən 30 sual olmaqla, ümumilikdə, 90 test tapşırığı verilir. İmtahanın gedişinə 2 saat 45 dəqiqə vaxt ayrılır. Muxtar respublikada keçirilən imtahanların idarə olunmasına, ümumilikdə, 27 imtahan rəhbəri 12 ümumi rəhbər, 336 nəzarətçi-müəllim ayrılıb.

Məlumat üçün bildirək ki, Dövlət İmtahan Mərkəzi 2017-ci ildə tələbə qəbulu və ümumi təhsil müəssisələri üzrə buraxılış imtahanlarının nəticələrinin elmi-statistik təhlilini aparmış, təhlilin nəticələri “Abituriyent” jurnalının bu ilin aprel ayında nəşr olunan 12-ci buraxılışında dərc olunmuşdur. Təhlildən görünür ki, muxtar respublikanın ümumtəhsil məktəbləri 2017-ci ili uğurla başa vurmuş, sənədvermə və qəbul prosesi mütəşəkkil həyata keçirilmiş, ayrı-ayrı fənlər üzrə yüksək nailiyyətlər əldə olunmuşdur. Həmçinin ötən tədris ilində ali təhsil müəssisələrinə qəbulolma faizinə görə Naxçıvan şəhəri, Kəngərli və Ordubad rayonları ölkə üzrə ilk onluqda qərarlaşmışlar. Ötən ilin IX və XI siniflərinin buraxılış imtahanlarında isə Naxçıvan şəhəri, Şahbuz rayonu və Sədərək rayonunun məzunları respublika üzrə qabaqcıl yerləri tutmuşlar. Muxtar respublikanın IX sinifləri ilə yanaşı, XI sinif məzunları da buraxılış imtahanlarının nəticələrinə görə respublikanın bölgələri arasında ilk pillələrdə qərarlaşmışlar. XI siniflərin buraxılış imtahanlarında iştirak edən 2012 məzun hər üç fənn üzrə müvəffəq qiymət almışdır. IX siniflərin buraxılış imtahanlarının göstəriciləri ana dili fənni üzrə müvəffəqiyyət faizi 98, riyaziyyat fənni üzrə müvəffəqiyyət faizi 95 olmuşdur. XI siniflər üzrə keçirilən imtahanların göstəriciləri ana dili fənni üzrə müvəffəqiyyət faizi 91, riyaziyyat fənni üzrə müvəffəqiyyət faizi 89, xarici dil fənni üzrə müvəffəqiyyət faizi isə 82 faiz təşkil etmişdir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*Azərbaycan mədəniyyət tarixində, teatr salnaməmizdə öz yeri və dəst-xətti olan Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı ictimaiyyəti daha bir uğurlu tamaşa – eyniadlı "Qılınc və qələm" səhnə əsəri ilə sevindirdi. Çoxşaxəli ədəbi fəaliyyətə malik, Azərbaycan ədəbiyyatı tariximizə tarixi roman janrının banisi kimi düşən Məmməd Səid Ordubadinin bu əsəri ədibin 1939-1941-ci illərdə yazdığı son tarixi romanıdır. Əsərdə 1175-1225-ci illərin, təxminən, yarıməsrlik bir dövrün hadisələri təsvir edilir. Müəllifin əvvəlki tarixi romanları ilə müqayisədə tarixi reallıqlar burada daha dəqiq, təhrif edilmədən əks olunur. Macəraçılıq üslubunda yazılmış "Qılınc və qələm"də tarixi sənədliliklə bədii təxəyyülü ustalıqla əlaqələndirən yazıçı surətlərin təqdimində digər tarixi romanlarından daha sərbəst hərəkət edib.*

Yeni tamaşalar

# İdrakla gücün birliyindən zəfər doğar

"Qılınc və qələm" çoxsaylı tarixi, elmi, ədəbi mənbələrə istinadən yazılan tədqiqat xarakterli, mürəkkəb bir əsər olub, Azərbaycanda XII əsrdə baş vermiş proseslərə, intibah dövründəki ictimai-siyasi, ədəbi hadisələrə həsr edilib. Burada Atabəy Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Nizami Gəncəvi, Məhsəti Gəncəvi kimi tarixi şəxsiyyətlərin obrazları yaradılıb. Bütün bunlar – Azərbaycan dövlətçilik tarixini, xalqımızın azadlıq uğrunda mübarizəsini əks etdirməsi romanın Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə Oxunması zəruri olan kitabların Siyahısına daxil edilməsini, eləcə də teatrın repertuarına salınmasını şərtləndirən amillərdir.

Əsərin səhnə versiyası ilə tanış olduqca Ali Məclis Sədrinin müvafiq sərəncamı ilə təsdiq olunmuş siyahıya daxil edilən bədii əsərlərin janr, üslub, mövzu rəngarəngliyi, milli və bəşəri ideyaların, vətəndaşlıq qayəsinin təbliği baxımından nə qədər həssaslıq və dəqiqliklə, müasir və klassik irsə kamil bələdçiliklə seçildiyini bir daha aydın dərk edirsən. Belə bir irihəcmli əsərin, tarixi və milli məsuliyyət tələb edən bir romanın uğurlu səhnə həlli tapması oxunması zəruri olan kitabların nəşrinin, mütaliə və müzakirələrinin həyata keçirilməsi, həmin ədəbi əsərlərin yeni istiqamətdə elmi tədqiqləri ilə yanaşı, incəsənətin ecazkar qüdrəti ilə, ekranlaşdırılmış və səhnələşdirilmiş şəkildə təbliğinin də zəruriliyini ortaya qoyur. Romanda baş qəhrəman, dahi şair Nizaminin dilindən deyilən "... biliksiz və siyasi düşüncəsi olmayan adamların silahları da qələbə qazana bilməz. Qəhrəmanlıq yalnız silah deyil, bilik də tələb edir" qənaəti müəllif qayəsi ilə "Oxunması zəruri olan kitablar haqqında" Sərəncamın əsas mahiyyətinin üst-üstə düşməsini təsdiq edir, bu isə əsərə müraciətin aktuallığını daha da artırır.

Repertuar seçimi Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı olduğu ildə bu qədim diyarda türk-islam mədəniyyətinin intibah mərhələsinə çatdığı Atabəylər dövlətinin hakimiyyəti dövründən bəhs edən bir əsərin tamaşaçılara təqdim edilməsi baxımından təqdirəlayiqdir. Əsərin Naxçıvan şəhərinin ölkəmizin Gənclər Paytaxtı olduğu ildə səhnələşdirilməsi surətlərinin əksəriyyəti gənclər olan tamaşa vasitəsilə Naxçıvanın istedadlı gəncliyinin incəsənət sahəsində uğurlarını sərgiləmək, onlara milli özünüdərk, tarixi köklərə bağlılıq, sağlam dövlətçilik əqidəsi, yüksək əxlaqi-mənəvi keyfiyyətlər aşılamaq baxımından da aktualdır.

Yeni tamaşa haqqında danışarkən, hər şeydən əvvəl, peşəkar səhnə versiyasını qeyd etmək yerinə düşər. Azərbaycan Respublikasının Əməkdar artisti Tofiq Seyidovun quruluş verdiyi yeni səhnə əsəri 2 pərdəli və 17 şəkillidir. Tamaşa irihəcmli əsərdə hadisələrarası məntiqi əlaqəni qırmadan ixtisarlar aparmaq, əsas ideyanı tamaşaçıya çatdıra bilmək baxımından Azərbaycan teatrında o qədər də zəngin olmayan tarixi roman səhnələşdirmək təcrübəsini zənginləşdirəcək uğurlu nümunədir.



Tamaşada hadisələr idrak, zəka rəmzi olan QƏLƏM – dahi şair Nizami Gəncəvi və gücün, cəsarətin tərənnümçüsü olan QILINCIN – Fəxrəddinin ətrafında cərəyan edir.

Əsərin əsas qəhrəmanlarından olan Nizami xalqına, Vətəninə sevgidən yoğurulan, incə ruhlu, fəlsəfi düşüncələrlə zəngin, ədalətsizliyə qarşı mübariz bir şair, şəxsiyyət, Azərbaycançılıq mücəssəməsi kimi təqdim olunur. O, müdrik fəlsəfəsi, təmkini, uzaqgörənliyi, milli ləyaqəti ilə seçilir. Nizami dəliqanlı Fəxrəddini öz siyasi düşüncəsi, mütəfəkkirliyi ilə hədəfə, məqsədə doğru düzgün istiqamətləndirərək apardığı mübarizələrdə ona yaxından kömək edir. Gənc aktyor Nəsimi Məmmədzadə belə bir klassik obraz yaratmağın şərəf və məsuliyyətini dərk edərək onu məharətlə canlandırır.

Gənc aktyor Səyyad Məmmədov isə mərd, cəsur, qəhrəman, qılıncı və iradəsi ilə xalqını, Vətənini müdafiəyə qalxan, sonadək mübarizə aparan, böyük Nizaminin məsləhətlərinə ehtiramla yanaşan Fəxrəddini ustalıqla canlandırır. Bütün səhnələrdə o, hər şeydən əvvəl, igid döyüşçü, basılmaz cəngavər təsiri bağışlayır. Bu cəsur obraz tamaşaboyu inkişafda təqdim olunur: Fəxrəddinin Cahan Pəhləvanın Gəncədə təşkil etdiyi məclisdə yer adlarının ərəbləşdirilməsinə əsaslı etirazı, Gavur arxının guya ərəblər tərəfindən çəkilməsi faktını təkzib etməsi, tamaşanın sonunda Qızıl Arslanı Azərbaycanın bütövlüyü və toxunulmazlığı naminə müdafiə etməyə razılaşması onun Nizami tövsiyələrindən – QƏLƏMİN gücündən bəhrələnərək adi cəngavərdən öz milli mənliyinə ağılın və həqiqətin gücü ilə sahib çıxa bilən, milli varlığını sübut etməyi bacaran xalq qəhrəmanına, məğrur bir sərkərdəyə yüksəldiyini göstərir.

Tamaşanın ən uğurlu obrazı Gəncə əmirinin qızı, xəlifənin nəvəsi Qətibə xanımdır. Gənc olmasına rağmən artıq səhnədə öz təsdiqini tapan, böyük istedad və yaradıcılıq potensialına malik aktrisa Nurbəniz Niftəliyeva bu obrazı emosional, təsirli və dolğun şəkildə canlandırır. O, aydın və nüfuzedici diksiyası, geniş aktyor diapazonundan irəli gələn plastikası ilə seçilir. Öz canlılığı və təbiiliyi ilə diqqətçəkən bu obraz hər səhnədə bambaşqa bir Qətibə xatın olmaqla uzun müddət tamaşaçının hafizəsində yaşayacaq. Nurbəniz obrazı daxilən yaşayır, ən müxtəlif səhnələrdə – xüsusilə də sevgisinin rədd edildiyi, özünün Atabəyə hazırladığı sui-qəsdin qurbanına çevrildiyi məqamlarda psixoloji halətlərini, ruhi təbəddülatlarını böyük məharətlə yarada bilir. Nizaminin qarşısında sevgi yalvarışları ilə inildəyən gənc qız rədd cavabı aldıqdan sonra kin, nifrət, qəzəb hayqırır. Əmir İnancın qızı Qətibənin – ilk səhnələrdəki nisbi məsumluğu, iffəti olan bu obrazın tamaşaboyu məhz saray mühitinin təsiri ilə "inkişafda" verilməsi – məkrli, hiyləgər, hakimiyyət hərisi, qisas hissi ilə alovlanan bir obraza çevrilməsi uğurlu rejissor işi, aktrisanın məharətidir.

Tamaşada Eldəniz dövlətinin başçısı Məhəmməd Atabəyin timsalında mübariz sərkərdə, ədalətli hökmdar obrazı ilə tanış oluruq. Aktyor Ələsgər Quliyevin uğurlu ifasında müxtəlif səhnələrdə – dövrün böyük şairləri – Nizami və Məhsəti xanıma münasibətində, torpaq ixtilafları ilə bağlı ərizələrin müzakirəsi zamanı, Fəxrəddinlə dialoqunda, "Bilmirəm hansı cəsarətiniz üçün Cahan Pəhləvan adını daşıyırsınız?" cəsarətinə rəğmən Gözəl və atası Canpoladla bağlı ədalətli qərarlarında bunun şahidi oluruq. Böyük Nizaminin "Fəqirəm, bəxtiyarəm, bir yenilməz kainatam mən" misrası ilə bitən şeirinə vurğunluğu qüdrətli bir hökmdarın əsl zənginliyin, məğlubedilməzliyin məhz mənəvi zənginlik, idrak kamilliyi olması qənaətini təsdiqləyir. Bu, Atabəy Məhəmməd Cahan Pəhləvanın yüksək əxlaqi-mənəvi keyfiyyətlərə malik olduğunu göstərir. Ən əsası isə hələ XII əsrdə Azərbaycanın Atabəylər kimi qüdrətli bir dövləti, bu dövlətin idarəetmədə demokratik prinsiplərə meyilliyi haqqında ətraflı məlumat almış oluruq. Atabəyin Fəxrəddinin və digər azərbaycanlıları xəlifəyə "mənim ölkəmin qəhrəmanlarıdır. Bunların tarixi şöhrətləri vardır. Bu millət Midiya qəhrəmanlıq tarixinə malikdir", – deyə təqdim etməsi də Azərbaycanla bağlı keçirdiyi milli qürur və iftixarın təzahürüdür.

Azərbaycan Respublikasının Əməkdar artisti Bəhruz Haxverdiyevin canlandırdığı Gəncə əmiri Əmir İnancın timsalında isə liberal, qorxaq, xalqın taleyinə biganə, hakimiyyətini hər şeydən üstün tutan bir əmir obrazı ilə qarşılaşırıq.

Əsərdəki digər tarixi şəxsiyyət – Məhsəti Gəncəvi obrazı ilə (Nazlı İmanquliyeva) o dövrün ədəbi mühitində qadınların rolu və ümumiyyətlə, Azərbaycan ədəbiyyatında və mədəniyyətində qadına şəxsiyyət kimi verilən dəyər tərənnüm olunur.

Tamaşada digər diqqətçəkən obrazlar isə xalqın nümayəndələri olan Gözəl və atası Canpoladdır. Gənc aktrisa Fatimə Yusiflinin uğurlu ifasında Məhəmməd Atabəylə mübahisəyə girmək, xalqının hüquqlarını müdafiə etmək cəsarətinə sahib qeyrətli, məğrur Azərbaycan qızı Gözəl canlandırılır. Rejissor Qətibə xatınla Gözəlin Atabəy qarşısında ailə qurmaq şərtlərini qabarıq şəkildə müqayisəli təqdim etməklə əsl Azərbaycan qızının hökmdarı tərbiyələndirəcək qədər vətənpərvər, xalqa bağlı biri olduğunu tamaşaçıya düzgün çatdıra bilir.

Tamaşada iştirak edən digər aktyorlar – Xalq artistləri Rövşən Hüseynov, Həsən Ağasoy, Azərbaycan Respublikasının Əməkdar artisti Əbülfəz İmanov, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Vüsal Rzayev, aktyor və aktrisalardan Vəli Babayev, Məmməd Mehdiyev, Həcərxanım Cavanşir, Mehri Nəbiyeva, Anar Eyvazov, Zəminə Məmmədova da öz rolları ilə əsərin uğurlu səhnə təcəssümünə, müəllif və rejissor ideyasının düzgün təqdimatına xidmət edirlər.

Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramov səhnə tərtibatı ilə tamaşaçıda hadisələrin baş verdiyi zaman və məkanla bağlı dolğun təsəvvür yaratmağa müvəffəq olur. Tamaşanı müşayiət edən dekorasiya – Qələm və Qılıncın – əsərin simvolik qəhrəmanlarının təsviri də başlıca ideyanın təbliğinə uğurla xidmət edir.

Ariz Ağayevin musiqi tərtibatı tamaşaçını hər səhnədə növbəti saray müəmmaları, yeni macəralarla rastlaşmağa hazırlayır. Udda ifa olunan musiqilər isə həm də bir Şərq aurası yaradır.

Tamaşa əsərdən fərqli olaraq nikbin notlarla tamamlanır. Əsərin ana qayəsi olan QƏLƏM – ağıl və zəka QILINCla – güc və qüvvətlə birləşir. Bu birlikdən güc alan, Ana Vətən Azərbaycanın rəmzi – xalq arasında böyük sevgi və nüfuza malik ana, qadın, şairə Məhsəti xanım övladlarını bu günə – xoşbəxt, firavan, müstəqil gələcəyə uğurlayır. Final səhnəsi akademik İsa Həbibbəylinin "Qılınc və qələm"in müstəqil Azərbaycanın romanı olması, milli dövlətçilik ideyasının məhz əsərdə təbliğ olunan qılıncın və qələmin birliyi əsasında yaranması və Azərbaycanda dövlət müstəqilliyinin qurulması ilə həyata keçirilməsi ilə bağlı fikirlərini xatırladır. Əsrlər öncənin xəyalı, amalı olan milli azadlıq və müstəqilliyimiz, QILINC və QƏLƏMin birliyi ilə qazandığımız bu günün reallıqları fəxarət doğurur!

Tamaşaya verilən ən yüksək qiymət isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun premyeradan sonra yaradıcı heyətlə görüşərək əsərin səhnə həllini yüksək dəyərləndirməsidir: ***"Dövlətçiliklə bağlı səhnə əsərlərinin yaradılması istedad tələb edir. Bunun üçün gərək böyük yazıçı, dramaturq olasan, öz ölkənin, xalqının tarixini və əsərin əhatə etdiyi dövrü yaxşı biləsən. "Qılınc və qələm" tamaşasında aktyor seçimindən tutmuş səhnə tərtibatına qədər bütün işlər ustalıqla görülmüşdür. Hər tamaşada bir obraz daha çox diqqəti cəlb edir. Bu tamaşada da Qətibə xatın obrazı mükəmməl yaradılmışdır. Bu cür obrazların yaradılması üçün gərək aktyorda istedad olsun. Tamaşada hər bir aktyorun istedadı görünürdü. Zəhmət çəkiləndə istənilən uğura nail olmaq mümkündür. Ancaq çəkilən zəhmətə, o tamaşaya, o rola ürəklə bağlananda isə həmin obraz təkcə oynanılmır, həm də yaradılır və yaşadılır. "Qılınc və qələm" tamaşasında da obrazları yaradan hər bir aktyor həm də öz vətəndaş sevgisini ortaya qoymuşdu".***

Tamaşa müstəqillik uğrunda mübarizə tariximizi bir daha vərəqləməsi ilə yadda qalır. Bəli, ən ağır və çətin sınaqlarda – QILINCsız – gücümüz yalnız fiziki qüvvəmizə çatdığı silahsız günlərimizdə QƏLƏMin – ümummilli lider Heydər Əliyevin siyasi müdrikliyi və uzaqgörənliyi sayəsində Naxçıvan müdafiə olundu, dahi öndərin siyasi qətiyyəti və fədakarlıqları nəticəsində Azərbaycanın müstəqilliyi qorundu! Məhz ümummilli lider Heydər Əliyev böyük zəka və siyasi iradəsi ilə QILINCları – bütün gücləri parçalanmaqdan olan Azərbaycanı xilas etmək naminə öz ətrafında birləşdirib QURTULUŞ DASTANINI yaza bildi! Xalq zəka, idrak, müdrik siyasət ətrafında birləşdi, lazım gəldikdə isə "qılıncına sarılmaqla" qüdrətini göstərdi.

Bu gün Naxçıvanın blokadada inkişaf modeli məhz idrak və zəkaya arxalanmaqla dünyaya ideal nümunə kimi təqdim olunur. Məhz ağıl və müdrikliklə yaradılan kəsərli qılıncımız – qüdrətli ordumuz tarixə Günnüt qələbəsini – 26 ildən sonra yurda zəfərli dönüş gününü yazdı. Bu ağıl və müdriklik sayəsində vaxtilə "təklənmiş ada" vəziyyətinə salınan muxtar respublikamızın paytaxtı bu gün İslam Mədəniyyətinin Paytaxtı kimi dünyaya qucaq açır.Və nə qədər ki müstəqil Azərbaycan güclü idrakın, idrakla idarəolunan gücün əlindədir, daim yaşayacaq, var olacaq! Azərbaycan hələ neçə-neçə qalibiyyət və zəfərlərə imza atacaq!

**Mehriban SULTAN**
**filologiya üzrə fəlsəfə doktoru**

## Əlahiddə Ümumqoşun Orduda növbəti komanda-qərargah təlimi keçirilir

2018-ci ilin hazırlıq planına uyğun olaraq Əlahiddə Ümumqoşun Orduda ərazidə kompüter dəstəkli olmaqla, növbəti komanda-qərargah təlimi keçirilir.



İyunun 18-dən başlayan komanda-qərargah təlimində qərargahlar tərəfindən əməliyyatların planlaşdırılması, praktik fəaliyyətə cəlb olunmuş bölmələr tərəfindən döyüş atışlarının icra edilməsi və qəbul olunmuş qərarların Simulyasiya Mərkəzində kompüterlər üzərində oynanılması məşq etdirilir.

İyunun 24-dək davam edəcək təlimdə məqsəd komandirlərin və qərargah zabitlərinin döyüşün təşkili və aparılması zamanı yaranmış müxtəlif şəraitlərdə bölmələrin fasiləsiz idarə olunması üzrə bilik və bacarıqlarının təkmilləşdirilməsidir.

**Nəriman NƏCƏFOV**

### İtmişdir

Naxçıvan şəhərinin Qaraçuq kənd sakini Əliyev Adil Hüseyn oğlunun adına olan 224A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Mehdiyev Nəbi Mehdi oğlunun adına olan hərbi bilet itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 452